yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur



2 FAŞİZM İÇİNDƏ QƏLƏBƏ



3 ERMƏNİSTANDA NƏ BAŞ VERİR?



4 RAMAZAN BƏRƏKƏTİ



6 MƏN TERRORÇU DEYİLƏM!!!

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 MAY 2018-Cİ İL
№007 (66)

## PREZİDENT PARLAMENTDƏ HESABAT VERİB



Prezident Giorgi Marqvelaşvili mayın 2-si Parlamentdə illik hesabatla çıxış edib.

20 dəqiqəlik çıxışında dövlət başçısı xarici siyasət, Rusiya ilə münasibətlər, iqtisadiyyat, media azadlığı və digər məsələlərə toxunub.

G. Marqvelaşvili 2018-ci ildə Rusiyanın "soyuq müharibə" imitasiyası yaratmağa cəhdlər etdiyini deyib. "Rusiyanın təxribatlarına uymaq olmaz və bunun üçün biz ayıq-sayıq olmalıyıq", - deyə Marqvelaşvili çıxışı zamanı vurğulayıb.

Prezident ölkədə biznesin azad olduğunu söyləyib. O, vergi sistemində həyata keçirilən islahatları, startap və innovasiyaların təşviqini alqışladığını qeyd edib.

Prezident çıxışında ölkənin təhsil sistemini tənqid edib. Dövlət başçısının sözlərinə görə, onun təhsil naziri olduğu dövrdən sonra təhsil sistemində heç nə həyata keçirilməyib.

## 2019-CU İLDƏN ƏMƏK MÜQAVİLƏSİNİN YOXLANILMASI MƏCBURİ OLACAQ



"Bu mərhələli prosesdir. İlk mərhələ üçün maksimum dərəcədə əmək təhlükəsizliyi normalarının nəzarətinə baxılacaq. Sonrakı mərhələdə isə artıq əmək hüquqlarına baxılacağı planlaşdırılır. Bu, qanunvericilik paketinin hazırlanması ilə təsdiqlənəcək. Proses artıq başlayıb və bizim departament assosiasiya ilə götürülmüş öhdəlik çərçivəsində çalışacaq və paket Parlamentə təqdim olunacaq. İlin sonunda müzakirə baş tutacaq və gələn ildən mərhələli şəkildə icraya başlanılacaq", - deyə Səhiyyə Nazirliyinin əmək və işlə təmin etmə siyasəti departamentinin rəhbəri Elza Cqerenaia bildirib.

Xatırladaq ki, hazırki qayda ilə əmək müqaviləsinin yoxlanılması işlə təmin edənin istəyinə uyğun olaraq baş verir.

## HAKİM PARTİYANIN PREZİDENTLİYƏ NAMİZƏDİ İYUL AYINDA ELAN OLUNACAQ

Baş nazir Giorgi Kvirikaşvilinin bəyanatına əsasən, hakim partiya olan "Gürcü Arzusu" prezidentliyə namizədini iyul ayında elan edəcək.

"Prezidentliyə namizəd iyulda bildiriləcək", - baş nazir bildirib.

Qeyd edək ki, sayca yeddinci olan prezident seçkiləri oktyabr ayında baş tutacaq.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ BMT-NİN SƏFİRLƏRİ İLƏ GÖRÜŞÜB

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili Birləşmiş Millətlər Təşkilatının (BMT) müxtəlif ölkələrinin diplomatik missiya rəhbərləri ilə görüşüb. Hökumət Administrasiyasında baş tutan görüşdə Gürcüstanın xarici işlər nazirinin birinci müavini David Zalkaliani və Gürcüstanın BMT-də daimi nümayəndəsi Kaxa İmnadze də iştirak edib.



Baş nazir BMT-də müxtəlif ölkələrin daimi nümayəndələrini reformalarla bağlı 4 bəndlik plan, ölkənin iqtisadi imkanları və turistik potensialı ilə tanış edib.

BMT-nin səfirləri ölkədə həyata keçirilmiş reformaları yüksək qiymətləndiriblər. Gürcüstanın Avropa və Avroatlantikaya inteqrasiya baxımından tərəqqisi də qeyd olunub.

BMT-nin digər üzv ölkələri ilə ikitərəfli münasibətlərin inkişafı haqqında da söhbətlər aparılıb. Gürcüstanın dünya miqyasında müxtəlif beynəlxalq və regional təşkilatlardakı aktiv iştirakı da diqqətə yetirilib.

G. Kvirikaşvili BMT-nin səfirlərinə Gürcüstanın işğal altında olan ərazilərində baş verən hadisələr və humanitar, insan hüquqları və təhlükəsizlik baxımından orada olan vəziyyətlə bağlı məlumat verib.

Görüş zamanı konfliktin sülh yolu ilə həll olunması istiqamətində Gürcüstanın danılmaz cəhdi vurğulanıb və bu prosesdə Cenevrə beynəlxalq müzakirələrinin rolu xüsusi qeyd olunub.

BMT-nin səfirləri Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bildiriblər.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANLARININ TƏQAÜDÜ ARTACAQ

İkinci Dünya müharibəsi veteranlarının təqaüdü ikiqat artacaq. Bu haqda Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclasında bildirib.



"Mayın 9-u İkinci Dünya müharibəsi veteranları ilə görüşümüz oldu. Çox həyəcanlı və emosional gün idi. Onlar öz vətənləri üçün həyatlarından keçməyə hazır olan qəhrəmanlardır və xüsusi hörmətə layiqdirlər. Dünən günümü demək olar ki, onlarla keçirdim. Hökumət iclasında bir neçə üzvlə, əsasən iqtisadiyyat bloku ilə söhbətim oldu. Bu şəxslərə qarşı ölkəmizin müəyyən qədər hörmətini ifadə edən addımı qeyd etmək istəyirəm. İstəyirəm ki, İkinci Dünya müharibəsi veteranlarının təqaüdünü ikiqat edək. Təəssüf ki, onların sayı çox azdır və biz onların hər birinə dövlət tərəfindən xüsusi diqqət göstərməliyik. Bu, onlara təşəkkür üçün kiçik diqqət olacaq və bir daha istəyirəm ki, onları bu gün münasibətilə təbrik edim. Bu gün onlar üçün, bütün ölkə üçün xüsusi gündür," – deyə baş nazir bildirib.



# FAŞİZM İÇİNDƏ QƏLƏBƏ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

***9 May – faşizm üzərində Qələbə günü hər il dünyanın bir çox ölkəsində qeyd edilir, o cümlədən ölkəmiz Gürcüstanda da. Bu il də mayın 9-u ölkə prezidentindən tutmuş, yerli özünüidarəetmə nümayəndələrinin iştirakı ilə Qələbə günü üçün ucaldılmış abidələrə, memoriallara əklillər qoyuldu, veteranların ünvanına təbriklər söyləndi, mükafatlar verildi, xatirə şəkilləri çəkdirilib sosial şəbəkələrdə paylaşıldı. Bu öz yerində. Bütün bu tədbirlər, təbriklər, təltiflərin nə qədər səmimi və ya formal olmağı da maraqlı deyil. Maraqlı olan mahiyyətdir. Bütün dünyada hələ də faşist hərəkatları, hərəkətləri, faşist fikirli insanlar varkən, deməli faşizm davam edir, faşizm üzərində qələbə hələ baş verməyib. Faşizm üzərində qələbəyə hələ çox var, bəlkə də mümkün deyil. Faşizmin üzərində deyil, faşizmin içində, daxilində, dərinində qələbə çalmaq lazımdır. Bu da hər insanın öz içindəki, daxilindəki faşisti öldürməsi ilə mümkündür.***

Millətlərin bir-birinə nifrət etdiyi, müharibələr apardığı, günahsız uşaqların, qadınların, qocaların öldürüldüyü bir zamanda faşizm üzərində qələbə bayramını qeyd etmək absurd görsənir. Əgər hələ də insanlar irqinə, dininə, dilinə, cinsinə, dərisinin rənginə, siyasi baxışına və daha nələrəsə görə təcavüzə məruz qalırlarsa, deməli faşizm üzərində qələbə hələ baş verməyib. Əgər mağazada, ictimai nəqliyyatda, xəstəxanada başqa dildə danışdığına görə sənə it kimi cavab verirlərsə, səni alıcı, sərnişin, xəstə kimi deyil, üçüncü, dördüncü sort insan kimi görürlərsə, deməli faşizm üzərində qələbə hələ baş verməyib. Əgər doğulub boya-başa çatdığın, məktəbini, universitetini bitirdiyin, hərbi xidmətini çəkdiyin, pasportunu daşıdığın ölkədə sənə vətəndaş kimi deyil, milli azlıq, diaspora, qonaq kimi baxırlarsa, deməli faşizm üzərində qələbə hələ baş verməyib və faşizm hələ davam edir.

Faşizm 1922-ci ildə İtaliyada yaranmış "demokratik azadlıqlara son qoyaraq yerinə qatı şovinizm, irqçilik gətirən və avtoritar sistem yaratmaq məqsədi güdən siyasi cərəyandır". İtalyan dilində "fascismo" dəstə, birlik deməkdir.

"Faşizm ideologiyasında millətin qan ümumiliyinə əsaslanan ən ali və əbədi varlıq olmasından ibarət konsepsiya xüsusi yer tutur. Millətlər aşağı və ali kateqoriyalara bölünür. Faşist cəmiyyətində ali millətlərin digərləri üzərində ağalıq etməsi nəzərdə tutulur.

Faşizm İkinci Dünya müharibəsi illərində özünün həqiqi mahiyyətini açıb göstərmişdir. Ölüm düşərgələri, soyqırımları, krematoriyalar, bəşəriyyətə qarşı kütləvi cinayət aksiyaları ilə faşizm öz işini görürdü". İkinci Dünya müharibəsinin başlanmasında həlledici rol oynayan faşizm məğlubiyyətə uğrasa da ideya-siyasi cərəyan kimi tam olaraq kökü kəsilmədi, neofaşizm şəklində yenidən özünü göstərdi və bu gün də müxtəlif simvollar altında öz işini görməkdədir.

Ötən günlərdə jurnalist Zviad Koridzenin "Gürcüstanda millin azlıqlar" adlı diskussiyasının "Batumelebi" elektron qəzetində yayımlanan mətnindən aşağıdakı parçanı sizin də oxumağınızı istəyirəm. Koridze faşizmi bu cür izah edir:

""Gürcü marşı" Tbilisidə, Ağmaşenebelidə böyük aksiya keçirdi. Aksiyanın əvvəlki günü, axşam türk kafesində idim. Mənə dedilər ki, sabah kafeni bağlamalıdırlar. Çünki "Gürcü marşı" aksiya keçirəcək. Menecer mənə dedi ki, polis şöbəsinin rəhbəri onun yanına gəlib və dost kimi axşam saat altıdan kafeni bağlamağı məsləhət görüb. Bu o deməkdir ki, dövlət özəl şəxsin mülkünü mühafizə edə bilmir. Mülk toxunulmazdır, kimin olursa olsun – gürcünün, erməninin, azərbaycanlının və yaxud banqladeşlinin. Amma sən desən ki, öz mülkümü mən özüm mühafizə edəcəm və banqladeşlinin dərisinin rəngi və yaxud onun yanaşması xoşuma gəlmir, və ya kiminsə spesifik qoxusu var kimi faşizmin ən güclü indikatoru, məni ən çox dəhşətə gətirir. Faşizm məhz elə budur. Hitler ilk olaraq qaraçıları, sonra polşalını və daha sonra yəhudi əhalisini nə ilə məhv etdi?! Hitler alman xalqını inandırdı ki, onların spesifik qoxusu var. Bu, faşizmin ən dəhşətli reseptorudur və bunu hər gün eşidirik.

...Mən hər növ ayrıseçkiliyə qarşıyam. Mənim üçün etnik azlıqlar yoxdur, bu ölkənin vətəndaşları olan insanlar var. Məni maraqlandırmır kim dini azlıqdır və kim - çoxluq. Heç kim bilməz mən harada və necə ibadət edirəm. Mən kameralar qarşısında heç vaxt əlimdə şam tutmaram. Bu, cəmiyyətin işi deyil, çünki bu şəxsi məsələdi. Ayrıseçkilik çox pisdir. Çünki hər ayrıseçkiliyə məruz qalan qrup təsdiq etməyə başlayır ki, onlar loyaldırlar, başqasına sübut edirlər ki, Gürcüstanı çox sevirlər. İnsanlara bunu niyə sübut etdiririk?!" Belə!

İkinci Dünya müharibəsi milyonlarla insanın ömrünə son qoydu, o cümlədən 300 min gürcüstanlının. Bu, faşizmin nəticəsidir. Bu mübarizəyə görə, faşizm üzərində qələbəyə görə mücadilə apararaq həyatını qurban vermiş insanların ruhu qarşısında baş əyir, bütün dünya, həmçinin sayları artıq 676 nəfər qalan ölkə veteranlarına da təşəkkür edirəm.

***Qoy həmişə sülh olsun! Veteranlara verilən güllərin, çiçəklərin qoxusu "spesifik insan qoxusunu" ağuşuna alsın. Faşizm üzərində qələbə artıq olub, faşizm içində, daxilində, dərinində qələbə ümidi ilə!***

# GÜRCÜSTAN MÜDAFİƏ NAZİRLİYİ VƏ TÜRK KLİNİKASI ARASINDA MEMORANDUM BAĞLANIB

Gürcüstan Müdafiə Nazirliyi və türk klinikası "Reyap Hastanesi İstanbul" arasında əməkdaşlıq memorandumu bağlanıb. Sənədi Gürcüstan tərəfdən müdafiə nazirinin müavini Zaal Kapanadze, Türkiyə tərəfdən isə beynəlxalq xəstələrlə əlaqələr üzrə menecer Nazike Uğurlu imzalayıb.



Əməkdaşlıq memorandumu çərçivəsində Gürcüstanın Müdafiə Nazirliyi əməkdaşlarının, mülki şəxslərin, hərbi xidmətçilərin və onların ailə üzvlərinin lazım gəldiyi halda Türkiyə klinikasında güzəştli qiymətə müayinə və müalicə olmaq imkanı olacaq.

Əməkdaşlıq memorandumu gürcü tərəfi üçün təlimlərin keçirilməsini və tibbi personalın kvalifikasiyasının artırılmasında dəstək olmağı, həkimlərin qarşılıqlı dəyişmə səfərlərini nəzərdə tutur.

Sənəd Qoridə yerləşən Giorgi Abramişvili adına Hərbi Hospitalda imzalanıb. Türkiyə heyəti hospitalın infrastrukturunu nəzərdən keçirib və iş mühiti ilə tanış olub. Tərəflər klinikaların tarixi, məqsədləri, mövcud xidmətləri haqqında təqdimat ediblər.

# HÖKUMƏTİN QƏRARI İLƏ "ƏLÇATAN SƏHİYYƏ ÜÇÜN TƏRƏFDAŞLIQ" ADLI QEYRİ-KOMMERSİYA TƏŞKİLATI FƏALİYYƏTƏ BAŞLAYACAQ

Hökumətin qərarı ilə "Əlçatan səhiyyə üçün tərəfdaşlıq" adlı qeyri-kommersiya təşkilatı yaranır. Təşkilat əhali üçün tibbi xidmətin və medikamentlərin əlçatan olmasının qayğısına qalacaq.

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclasında bildirib ki, bu təşəbbüs xroniki xəstəliklərin müalicə vasitələrinin əldə olunması ilə bağlı problemi asanlaşdıracaq.

"2013-cü ildə Gürcüstanda ümum sığorta səhiyyə proqramının əsası qoyuldu. Əhali əhəmiyyətli dərəcədə rahatlıq tapdı, ancaq xroniki xəstəliklərin müalicə vasitələrini əldə etmək problem olaraq qalırdı. Bu təşəbbüs ilkin mərhələdə, elə bu il imkan yaradacaq ki, təqaüdçülər yetərli dərəcədə ucuz qiymətə dərman preparatları əldə etsinlər. Bu qazanc təşkilatı deyil, qeyri-kommersial hüquqi şəxsdir və ictimai, özəl strukturlar arasında tərəfdaşlığı nəzərdə tutur" – baş nazir Giorgi Kvirikaşvili bildirib.

# "PEŞƏKAR TƏHSİL HAQQINDA" QANUNLAR PAKETİ HÖKUMƏTƏ TƏQDİM OLUNUB

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili "Peşəkar təhsil haqqında" qanunlar paketini hökumətə təqdim edib.



"Xatırladım ki, biz Avropada olan müasir modelləri nəzərə alaraq tam yeni mərhələyə başlayırıq. Bu, əsasən Almaniya, Avstriya, İsveçrədə mövcud olan modellərdir. Dəyişikliklər peşəkar təhsildə yeni sistemin yaradılmasını nəzərdə tutur", – bildirib Giorgi Kvirikaşvili.

Qanunlayihəyə əsasən, attestat almaq və peşəkar təhsildən ali təhsil pilləsinə keçid imkanı yaranır. Dəyişikliklər həmçinin peşəkar təhsil pilləsində qazanılan kreditlərin ali təhsil pilləsində hesab olunması imkanı yaradır.

Dəyişikliklər eləcə də birgə və dəyişmə proqramlarının həyata keçirilməsi imkanı yaradır.

Gənclər və böyüklər üçün peşəkar hazırlıq sistemi formalaşacaq. Məqsədi kvalifikasiya vermək, fərdi kompetensiyaların inkişafı, biliyin daha da dərinləşdirilməsi olan rəngarəng tədris proqramları həyata keçiriləcək.

İnkluziv təhsil sistemi modellərinin əsası qoyulacaq. Dövlət peşəkar müəssisələrinə iqtisadi işlər həyata keçirmək, həmçinin tədris prosesində yaradılmış məhsulun realizə edilməsi xidmətini həyata keçirmək hüququ veriləcək.

Müəllimlər üçün hazırlıq və karyerada inkişaf sistemi formalaşacaq. Formal və qeyri-formal təhsili tanıma imkanları olacaq.

Qanunlayihə Avropa standartlarına və assosiasiya sazişi ilə qəbul edilmiş öhdəliklərə tam uyğun şəkildədir.

# SENTYABRIN 15-DƏN TBİLİSİ NƏQLİYYATINDA BÜTÜN NÖV PLASTİK KARTLARLA ÖDƏNİŞ ETMƏK OLACAQ

Sentyabrın 15-dən Tbilisi nəqliyyatında sərnişinlər yol xərcini bütün bankların və hər növ gürcü və xarici VİSA, MasterCard plastik kartları ilə ödəyə biləcəklər.

"Tender şərtlərinə əsasən, cari ilin 15 sentyabrından Tbilisi bələdiyyəsinin nəqliyyat vasitələrində hər növ gürcü və xarici VİSA, MasterCard plastik kartları ilə yol xərcini ödəmək mümkün olacaq. Qeyd olunan tarixdən yenilənmiş sistem başlayacaq", - "Gürcüstan Bankı"dan bildiriblər.

Xatırladaq ki, ötən il Tbilisi meriyası tərəfindən ictimai nəqliyyatda yol xərcinin ödənilməsi sisteminin müasirləşdirilməsi üçün elan olunmuş hərracda "Gürcüstan Bankı" qalib gəlib. "Gürcüstan Bankı" biletləşdirmə sisteminin idarəsi hüququnu 10 illik müddətə qazanıb.

## TÜRKİYƏ PREZİDENTİ ABŞ-IN İRANIN NÜVƏ PROQRAMI ÜZRƏ SAZİŞDƏN ÇIXMASINA MÜNASİBƏT BİLDİRİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın İranın nüvə proqramı üzrə sazişdən çıxması ilə bağlı qərarına münasibət bildirib. Ərdoğan qeyd edib ki, ABŞ imza atdığı sazişə sadiq qalmır.

"İtirən ABŞ olacaq, çünki razılıq verdiyi sazişə sadiq qalmır. Beynəlxalq razılaşmaları istədiyiniz zaman pozmaq, istədiyiniz zaman imzalamaq olmaz. Bu sazişlə bağlı işlərin bir anda tərs getməsi sadəcə regiona deyil, bütün dünyaya və beynəlxalq iqtisadiyyata təsir edəcək. ABŞ bundan mənfəət götürə bilər, ancaq bir çox ölkə ciddi zərər görəcək. Niyə daha böyük böhranlara yol açırıq? Başqa böhranlara ehtiyacımız yoxdur. İmzalar atılıbsa, sadiq qalmaq lazımdır", - deyə Türkiyə dövlət başçısı bildirib.

Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla bağlanmış nüvə sazişindən çıxdığını bəyan edib. O, Tehranı uranı zənginləşdirməkdə və sazişin müddəalarına zidd olaraq qadağan olunmuş silahlar hazırlamaqda ittiham edib.

## BU İL TÜRKİYƏ İLƏ RUSİYA ARASINDA VİZA REJİMİ LƏĞV EDİLƏ BİLƏR



Rəsmi Ankara bu ilin sonuna qədər Rusiya ilə viza rejiminin ləğv edilməsini, yaxud viza rejiminin asanlaşdırılmasını gözləyir. Bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

M. Çavuşoğlu deyib ki, bu ilin sonunda iki ölkənin prezidentləri telefon danışığı, yaxud ilk şəxsi görüşlərində viza rejiminin ləğvi barədə qərar verə bilərlər.

Qeyd edək ki, Rusiya 2015-ci ilin noyabrında Suriya-Türkiyə sərhədində "Su-24" hərbi təyyarəsinin vurulmasından sonra Türkiyə vətəndaşlarına viza rejimi tətbiq edib.

## DMİTRİ MEDVEDEV YENİDƏN RUSİYANIN BAŞ NAZİRİ OLUB



Dmitri Medvedev yenidən Rusiyanın baş naziri vəzifəsinə təsdiqlənib. Dövlət Dumasının mayın 8-də keçirilən plenar iclasında hökumət başçısı vəzifəsinə Dmitri Medvedevin təyin olunması məsələsinə baxılıb, onun namizədliyi səsə qoyulub.

D. Medvedevin lehinə 374 nəfər deputat səs verib, 56 nəfər isə əleyhinə olub. Beləliklə, baş nazir vəzifəsinə D. Medvedevin namizədliyi təsdiqlənib.

## NİKOL PAŞİNYAN ERMƏNİSTANIN BAŞ NAZİRİ SEÇİLİB



Ermənistan müxalifətinin lideri Nikol Paşinyan baş nazir seçilib. Mayın 8-i Ermənistan parlamentinin xüsusi iclası keçirilib.

Səsvermə zamanı 59 deputat "Yelk" (Çıxış) fraksiyasının üzvü, ölkədə başlayan etiraz aksiyalarının lideri N. Paşinyanın lehinə, 42-si isə əleyhinə səs verib.

Qeyd edək ki, mayın 1-nə təyin edilmiş xüsusi iclasda Ermənistan parlamenti N. Paşinyanın baş nazir vəzifəsinə namizədliyini qəbul etməyib.

Xatırladaq ki, deputat N. Paşinyan aprelin 13-dən İrəvanda başlayan kütləvi etiraz aksiyalarına rəhbərlik edib. Aksiyaçılar sabiq prezident Serj Sarkisyanın baş nazir təyin edilməsinə qarşı çıxış ediblər. Etiraz aksiyalarının nəticəsi olaraq baş nazir Serj Sarkisyan istefa verib.

## ERMƏNİSTANDA NƏ BAŞ VERİR?



Sahib Mustafa
*sahib1975.sm@gmail.com*

***Ermənistanda Nikol Paşinyanın rəhbərlik etdiyi "məxməri inqilab" bu ölkənin daxilində baş verən siyasi hadisə olsa da, onun nəticələri region ölkələrinin maraq dairəsindədir. Xarici faktorların "köməyi" ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini işğal etmiş, Türkiyəyə qarşı ərazi və qondarma "soyqırım" iddiaları ilə çıxış edən Ermənistanın yeni rəhbərliyinin sərgiləyəcəyi siyasət analitik təftişə ehtiyac duyur. Bunun üçün özünü "xalqın namizədi" adlandıran və Ermənistanın "çiçəyi burnunda" yeni baş nazirinin verdiyi bəyanatları nəzərə almaq gərəklidir.***

Şübhəsiz ki, Paşinyanın "məxməri inqilab"ını ən yaxından təqib edən Kreml olmalıdır. Heç kimə sirr deyil ki, Ermənistan Rusiyanın "şəxsi mülkiyyətidir". Belə ki, uzun illərdən bəri Ermənistanın yürütdüyü daxili və xarici siyasət Moskvanın "xeyir-dua"si ilə gerçəkləşmişdir. Bu ölkədə Rusiyanın hərbi bazasının yerləşdiyini də unutmaq lazım deyil. Ona görə də Nikol Paşinyanın Rusiya ilə münasibətdə Ermənistanın xarici siyasət vektorunda radikal dəyişiklik edəcəyi inandırıcı gəlmir. Paşinyan ilk çıxışlarında Rusiya ilə Ermənistanın münasibətlərini "danışan" Rusiya və "dinləyən" Ermənistan tərəfləri adlandırmış və Ermənistanın Avropaya meyillənməyinin tərəfdarı olduğunu vurğulamışdır. Ermənistan parlamentində Paşinyanın ilk iclasda baş nazir namizədi dəstəyi almamasını da əvvəlki iqtidar tör-töküntülərinin Moskva qarşısında son görəvi adlandırmaq olar. Rusiya parlamentarilərinin apar-topar İrəvana gələrək Kremlin "ismarıc"ını inqilab liderinə çatdırdıqdan sonra Ermənistanın "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı" və "Avrasiya İqtisadi Komissiyası"nda qalacağına zəmanət verməsi Paşinyanın hansı səviyyədə "xalqın namizədi" olmasından xəbər verir.

Bəs Serj Sarkisyanı "sataraq" Paşinyanı "ələ almaq" (verbovka) üçün Rusiyanın əlavə cəfa sərf etməsi Kremlə nə dərəcədə lazım idi? Ermənistanda korrupsiya çirkabına bataraq ölkəni dərin iqtisadi böhranla üz-üzə qoymuş Sarkisyanın ictimai dəstəkdən məhrum olması və nəticədə etirazların sosial partlayışa gətirib çıxaracağı qaçılmaz idi. "Moskvanın adamı" kimi tanınan Sarkisyanın kosmik sürətlə nüfuzdan düşməsi Ermənistanda paralel olaraq antirusiya meyllərinin güclənməsi anlamına gəlir. Ona görə də Moskva Ermənistan rəhbərliyində "ratirovka" etməklə erməni ictimaiyyətini çaşdırmaq və bu ölkədə qalıcılığının ömrünü uzatmağa çalışır. Əks təqdirdə İrəvanı itirməklə Rusiya Cənubi Qafqaz regionunda təsirini itirmiş olardı.

Digər tərəfdən, Ermənistanın xarici siyasətində konstruktiv dəyişiklik olunacağına ümid bəsləməmək üçün bölgənin geosiyasi coğrafiyasına nəzər yetirmək yetərlidir. Yuxarıda da vurğulandığı kimi, işğalçı erməni ordusu Dağlıq Qarabağı azad etməmiş və Türkiyəyə qarşı absurd iddialarla çıxışlarından əl çəkməmiş bölgənin adı çəkilən inkişaf etmiş ölkələri ilə münasibətlərinin normallaşması qeyri-mümkündür. Gürcüstan isə həm Azərbaycan, həm də Türkiyə ilə strateji tərəfdaşdır. Tbilisinin Ermənistana görə iqtisadiyyatında böyük çəkiyə malik Bakı və Ankara ilə münasibətlərini pozmayacağı bəllidir. İrəvanın digər qonşusu – İrana ümid bəsləməsi qismən olsa da, tam ola bilməz. Çünki İranın özü total şəkildə Vaşinqtonun embarqosu ilə qarşı-qarşıyadır. Tehran Ermənistan iqtisadiyyatına yüklü miqdarda sərmayə qoymağa könülsüzdür. Ona görə də qeyd olunan amilləri nəzərə alaraq Ermənistanın Rusiyanın siyasi orbitindən çıxacağı indiki zamanda real görünmür.

***Lakin Ermənistanın yeni baş naziri siyasi iradə nümayış etdirib, mənasız xülyalardan əl çəkərək ilk növbədə öz qonşuları ilə münasibətlərini düz məstəviyə çıxara bilsə bu, məhz Ermənistan üçün faydalı olacaqdır. Əks halda yeni baş nazir vaxt keçdikcə "köhə baş nazir"ə çevriləcəkdir. Zaman isə Ermənistanın əleyhinə işləməkdədir.***



# RAMAZAN BƏRƏKƏTİ

Hacı Bəkiroğlu
hacibakir@mail.ru

***Qarşıdan Ramazan ayı gəlir. Öncəliklə hər birinizi bu mübarək ay münasibətilə təbrik edirəm. Ramazan orucu hicrətin ikinci ilində, Bəqərə surəsinin "Ey iman edənlər! Sizdən əvvəlkilərə oruc fərz qılındığı kimi, sizə də fərz qılındı. Ümid edilir ki, (günahlardan) qorunarsınız" – 183-cü ayəsi ilə vacib qılınmış, Rəsulullah (s.ə.s) də (oruc fərz qılındıqdan sonra) doqquz Ramazan (doqquz il) oruc tutmuşdur.***

Oruc İslam dininin beş şərtindən biridir. İldə bir ay – Ramazan ayında Allaha qulluq və ibadət məqsədi ilə, dan yerinin ağarmağa başlamasından günəşin batmasına qədər, niyyətlənərək bir şey yeyib-içməkdən və orucu pozan başqa şeylərdən nəfsi qorumaq surəti ilə tutular.

Adəmdən bəri bütün peyğəmbərlər və ümmətlər üzərinə orucun fərz qılındığı və bütün şəriətlərdə təyin edilmiş köhnə bir ibadət olduğu da, beləcə yuxarıdakı ayə vasitəsilə meydana çıxmışdır.

Ramazanın ən əhəmiyyətli yönü isə içində olan Qədr gecəsidir ki, Qurani-Kərim bu gecədə nazil olmuşdur. Bu ay Qurani-Kərimin ifadəsilə, min aydan daha dəyərlidir.

Yəhudi və xristianlar mükəlləf olduqları orucların günlərini, ədədlərini və şərtlərini dəyişdirmişlər, pəhriz və sair adlarla uydurma mərasimlər ortaya çıxarmışlar.

Allah-Təala bu ümmət üzərinə orucun vacibliyini qüvvətləndirmək, iman əhlini oruca təşviq etmək, nəfslərini təmin üçün orucun keçmiş ümmətlərə də vacib qılındığını bəyan buyurmuşdur. Çünki oruc insanların nəfslərinə çətin və ağır gələn bir ibadətdir. Çətin olan hər şeyin isə hər kəsə fərz olması ürəkləri rahatlaşdırar.

Ramazan həmd və şükr ayıdır. Bizi Ramazana çatdırdığı üçün Rəbbimizə həmd edər və bu ayın qədir-qiymətini bildiyimizi göstərmək məqsədilə orucla Ona şükr edərik.

Ramazan Quran ilə silkələnilib özümüzə gəlmə ayıdır. Unutduqlarımızı xatırlama, küllənən dəyərləri yenidən canlandırma ayıdır.

Ramazan cahilliyin və cəhalət qaranlığından xilas olub vəhyin nuruna qovuşmaqdır.

Bir təqva ayıdır Ramazan və fücurdan qurtuluş ayıdır. Oruc nəfslərimizdəki təqvaya güc verərək bir növ mənəvi güc qaynağı funksiyası daşıyır.

Ramazan bir ünsiyyət ayıdır. Ramazan insanlarla maraqlanmaq, ehtiyaclarını qarşılamaq fürsətlərini daşıdığı üçün möminlərin ətraflarıyla olan əlaqələrini daha da genişlətmək fürsəti verir. Ramazan yoxsulun, kasıbın halını yaşayaraq öyrənmək, hiss etmək və onların dərdinə dərman olmaq ayıdır.

Ramazan bir tövhid ayıdır, çünki oruc içində riyanı saxlamaması səbəbi ilə tövhidə ən yaxın olan ibadətlər içərisindədir. Nümayişlə çirklənməyən, dəyəri sıfırlanmayan bir ibadət isə adamı günahlarından təmizləyər, tərtəmiz edər.

***Ramazan ümmətin ortaq döyünən ürəyidir. Ramazan bütün qardaşlarımızla eyni həyəcanı yaşamaq, oruc tutmaq, iftar və sahur etmək, təravih namazı qılmaq və müsəlmanlarla aramızda qopmaz bir bağ meydana gətirməkdir.***

# რამაზანის დღესასწაული

წმინდა რამაზანის თვე მუსლიმებისთვის ჰიჯრის ისტორიის მეორე წელს (მილადის ისტორიის 622-ე წელს) იქნა განსაზღვრული. რამაზანის თვე ადამიანების მიერ ღვთის მითითების მთელი სულით და გულით მიღების, ფიზიკური და სულიერი გამოცდის მნიშვნებაა. ამ თვეში მუსლიმები მარხულობენ.

მარხვის ისტორია იწყება ჰიჯრის ისტორიის მეორე წლიდან. იმ დროს მუხამედ მოციქულმა მუსლიმებისათვის რამაზანის თვე განსაზღვრა. ღმერთმა ყურანი რამაზანის თვის ბოლო ათი დღის ერთ ღამეს მოავლინა. როგორც ამბობენ ეს მოვლენა მომხდარა 23-დან 24-ში გადასვლის ღამეს ან და 26-დან 27-ში გადასვლის ღამეს. ის ღამე „ლეილეთ ელ გედირ" ანუ უაღრესად გავლენიანი ღამედ იწოდება. ყურანში, ამ ღამის შესახებ ნათქვამია: „ჩვენ ის (ყურანი) გედრის ღამეს მოგივლინეთ, შენ საიდან უნდა იცოდე, რას ნიშნავს გადრის ღამე?! გედრის ღამე ათას ღამეს აღემატება. იმ ღამეს ანგელოზები და სული (ჯიბრაილი) ღვთის ნებით და ყოველი ბრძანებით მიწაზე ეშვებიან. ის (ღამე) დილამდე მთლიანად სიმშვიდეს წარმოადგენს."

მარხვის დროს დღის სინათლეზე ჭამა, სიგარეტის მოწევა და სხვა მოქმედებები დაუშვებელია. ბავშვები, ორსული ქალები, მძიმედ ავადმყოფები, მებრძოლები და გზად მყოფნი მარხვისგან თავისუფალნი არიან. მარხვა იწყება ახალი მთვარის გამოჩენიდან და 29-30 დღეს გრძელდება. ყურანში ნათქვამია: „დილით ადრე სანამ თეთრი ძაფი შავისგან განსხვავდება ჭამეთ და სვით. შემდეგ კი ღამემდე მარხვა გააგრძელეთ". მარხვა გულისხმობს: მოთმინებას, თავმდაბლობას და სულიერ სიმშვიდეს. ეს დრო არის მიძღვნილი ღვთის საამებლად.

მარხვა ისლამზე უწინ არსებობდა. ამის შესახებ ყურანში ნათქვამია: „როგორც თქვენი წინაპრები მარხულობდნენ, ასევე იმარხულეთ თქვენც, იქნებ ღვთის შიში გქონდეთ".

მარხვა მთავრდება იდ-ალ-ფითრის დღესასწაულით. იმ დღეს ყველა შეძლებული მუსლიმი ვალდებულია დაეხმაროს ღარიბ მუსლიმებს.

# KOMMERSİYA BANKLARININ KREDİT VERMƏSİ MƏHDUDLAŞDIRILIR




Gürcüstan Milli Bankının prezidentinin sərəncamına əsasən, müştəri maraqlarının müdafiəsi və kommersiya banklarında sağlam kredit portfelinin əlçatanlığı məqsədi ilə "kommersiya banklarında kreditlərin konsentrasiyası və geniş risklər haqqında maddə"yə dəyişikliklər daxil edilib.

Milli Bankın məlumatına görə, dəyişikliklərə əsasən 2018-ci ilin 7 may tarixindən müştərilərin ödəmə imkanlarının tam analizi olmadan kommersiya banklarına kredit vermək məhdudlaşdırılacaq. Xüsusi ilə bu növ kreditlərin ümumi məbləği kommersiya bankının tənzimləyici kapitalının 25%-dən artıq olmamalıdır.

"Gürcüstanın Milli Bankı əhalinin həddindən çox borclu olması dinamikasını analiz edib və qeyd olunan problemin ümumilikdə və davamlı şəkildə həlli yolları üzərində çalışırdı. Bu məsələni 2018-ci ilin mart ayında Maliyyə Stabilliyi Komitəsi ətraflı müzakirə edib. Son illərdə təsərrüfatların borcu yüksək templə artmaqdadır və buna diqqət yetirmək lazımdır. Gəliri ilə müqayisədə borcu daha çox olan şəxslərin krediti daha çoxdur. Həmçinin maliyyə institutlarında gəlir mənbəyinə daha az diqqət ayıran biznes model həyata keçirilir və riskin idarəsi üçün başqa cəhətlərə diqqət ayrılır.

Qeyd olunan məsələ qiymətdə yüksək riskin olması imkanı yaradır, ancaq yüksək qiymət imkansız qruplardan oxşar məhsullara tələbin azalmasına səbəb olmur, həmçinin məsuliyyətli kredit vermə təcrübəsi baxımından maliyyə səhvləri yaradır. Çox hallarda kredit götürənin gəlir və ödəmə imkanı araşdırılmadan kredit verilir. Aparılan araşdırmanın nəticəsinə əsasən, kredit götürənlərin böyük hissəsinin çalışdığı və ya başqa sahədən gələn gəliri qeydə alınmır. Belə kredit götürən şəxslərin əksəriyyətinin götürdükləri borca dair artıq ödəmə müddətləri keçib. Krediti ödəməyənlərin isə, qaydaya əsasən bank hesabına əlçatanlığı məhdudlaşır və potensial hüquqi icra qorxusu olduğuna görə formal çalışmaq həvəsi azalır. Bu isə, ümumi iqtisadiyyat üçün problemdir. Beləliklə, əhalinin qeyd olunan hissəsinin vəziyyəti pisləşir", - deyə Milli Bankdan bildirilib.

Milli Bankın məlumatına görə, gəlirin təsdiqlənməsindən kənar pərakəndə şəkildə kredit verilməsi həvəsinin azalması bank sektorunda kredit standartlarının, kommersiya banklarının kredit portfelinin keyfiyyətinin yaxşılaşdırılmasına və sosial cavabdehliyi olan kredit münasibətlərinin həvəsləndirilməsinə dəstək olacaq.

Qeyd etmək lazımdır ki, təyin olunmuş məhdudlaşdırma qiymətli daşlar və metallar və ya daşınmaz əmlakla təmin olunan kreditlərə aid deyil. Ödəmə dəyərləri çərçivəsində kredit götürənin ödəmə imkanının tam analizi olmadan, daşınmaz əmlakla ödənilən kreditlərin ümumi dəyəri bankın tənzimləyici kapitalının 15%-dən artıq olmamalıdır. Kredit verilən zaman isə, kreditin təmin edilməsi əmsalı 50%-dən artıq olmamalıdır.

Kredit götürənin ödəmə imkanının dəyərləndirilməsi tələbi, eləcə də Avropa İttifaqında qüvvədə olan direktivlə (istifadəçinin kredit müqaviləsinin 2008/48/EC direktivi) də müəyyən olunub. Gürcüstan Assosiasiya Haqqında Sazişə əsasən 2019-cu ildən qeyd olunan direktivi tətbiq etməlidir.

# MƏQSƏDYÖNLÜ PROQRAMLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜÇÜN "MÜƏLLİMLƏR EVİ" HANSI YENİLİKLƏRİN ƏSASINI QOYMAĞI PLANLAŞDIRIR

**Müəllimlərin Peşəkar İnkişaf Mərkəzi məqsədyönlü proqramlar ("Gürcüstanla birgə öyrət və öyrən", "Gürcüstan üçün öyrət" – qeyri-gürcü dilli məktəb müəllimlərinin peşəkar inkişaf proqramları) həyata keçirir. Proqramlar tədrisin keyfiyyətinin təkmilləşdirilməsinə və onun əlçatanlığının təmin edilməsinə xidmət göstərir. Mərkəzin direktoru Giorgi Maçabeli qeyd olunan proqramlar haqqında danışır:**

– Bizim mərkəzin gördüyü işlərdən birinin istiqaməti məhz məqsədyönlü proqramların həyata keçirilməsidir. "Gürcüstanla birgə öyrət və öyrən" proqramı 2010-cu ildən qüvvədədir. Proqram çərçivəsində xarici dilli könüllü müəllimlər Gürcüstana gəlir və bizim məktəblərdə işlə təmin olunurlar. İlk əvvəl proqram geniş miqyasda başladı. Bir çox könüllü gəlirdi və şagirdlərə ingilis dilini öyrədirdi. 2014-cü ildən proqramın miqyası kiçildi, ancaq əvəzində keyfiyyəti yaxşılaşdı. Ötən illərdə könüllülər arasında pedaqoq və peşəkar olmayanlar da var idi. Məsələn, elə hal olurdu ki, başqa peşə sahibləri gəlirdilər. Bəzilərinin ana dili ingilis dili deyildi. Bu proqramın keyfiyyət dərəcəsini azaldırdı, ona görə də seçim meyarlarını sərtləşdirdik.

**– Meyarlar hansı istiqamətdə dəyişib?**

– Könüllü şəxs mütləq pedaqoq olmalıdır. Ən azı bakalavr dərəcəsi olmalıdır, çünki indiyə qədər elə hallar olub ki, ümumiyyətlə dərəcələri olmayıb. Əgər keçən illərdə könüllülərin öhdəliyinə şagirdlərin tədrisi daxil idisə, yeni şərtlərə əsasən, onlar ingilis dilini bilməli və peşəkar inkişaf məqsədi ilə həmkarlarla əməkdaşlıq etməlidirlər. Həmçinin onları qəbul edən ailənin üzvlərinə ingilis dilinin tədrisində dəstək olmalıdırlar. Nəticədə könüllülərin və yerli müəllimlərin əməkdaşlığı ilə onlarla və daha çox tədris və sosial layihələr həyata keçirildi. Seçim prosesi könüllülərin şəxsi etibarlılığı baxımından da sərtləşib – könüllünün kriminal keçmişi, yoluxucu xəstəliyi olmamalıdır. Məhz meyarların kəskinləşməsinə görə könüllü müəllimlərin sayı azaldı, ancaq qeyd etdiyimiz kimi, keyfiyyət artdı. Maliyyələşdirilmənin artırılması halında proqramın keyfiyyətini saxlamaqla həcmini artırmağa hazırıq.

**– "Gürcüstanla birgə öyrət və öyrən" proqramında hansı yeniliklər var?**

– Yenilik odur ki, indiyə kimi yalnız ingilis dili müəllimlərini qəbul edirdiksə, indi artıq alman, fransız və çin dili müəllimlərini də qəbul edirik. Bizim məktəblər çin dilinin tədrisi ilə çox maraqlanırlar və artıq 17 müəllim bu istiqamətdə çalışır. Daha bir yenilik proqramın ümumtəhsil müəssisələrindən başqa peşəkar təhsil müəssisələrini də əhatə etməsi faktorudur. İndi könüllü müəllimlər bu istiqamətdə də çalışırlar. Mərkəz könüllülərə daim koordinatorluq edir. Onlar üçün iş proqramına uyğun olaraq müxtəlif təlimlər və görüşlər təşkil edir. Həmçinin proqramın monitorinqi həyata keçirilir. Beynəlxalq peşəkar işgüzarlığa qoşulmaq məqsədi ilə proqram yerli xarici dil müəllimlərinin "eTwinning" portalında qeydiyyatdan keçməsini dəstəkləyir. Proqram inkişaf edir.



**– İkinci "Gürcüstan üçün öyrət" proqramı çətin şəraitdə gedilən məktəbləri əhatə edir?**

– Bəli, bu proqram əsasən dağlıq regionlarda və aranda çətin şəraitdə gediləcək məktəblərdə işləyir. Proqramın məqsədi tədris-təhsil keyfiyyətinin daha da yaxşılaşdırılması üçün peşəkar kadrların cəlb edilməsidir. Məktəblər vakansiya elan edir və bunun əsasında müxtəlif fənn üzrə məsləhətçi-müəllimləri seçirik və çatışmamazlıq olan məktəblərə göndəririk. Onlar əsasən fənn üzrə tədris prosesini aparırlar, bununla yanaşı dərsdən kənar klub və dərnəkdə çalışma kimi aktivliklərə qoşulurlar. Həmçinin onların icma ilə əməkdaşlıq etmək öhdəlikləri var. Mərkəz məsləhətçi-müəllimlərin peşəkar inkişafının qayğısına qalır – müxtəlif istiqamətlərdə təlimlər təklif edir. Proqrama müxtəlif fənn üzrə qrupun 194 məsləhətçi-müəllimi qoşulub.

**– Amma şagirdlər yenə də kvalifikasiyalı müəllimlərdən kənar qalırlar...**

– İndiki mərhələdə məktəblərdə yaranmış kadr çatışmamazlığının yalnız 70%-ni təmin edə bilirik. Bu az deyil, amma ədalətli olmaq və bütün şagirdlərə keyfiyyətli təhsilin əlçatan olması üçün bu problem minimuma endirilməlidir. Bu çatışmamazlığın doldurulması siyasəti üzərində nazirliklə birgə aktiv şəkildə çalışırıq. Bu istiqamətin inkişaf etməsi üçün yeni baxışımız var: ali təhsil müəssisələrində 300 kreditlik proqram məzunlarının birinci yığması bizə imkan verəcək ki, onlara bölmək komponenti və ilkin mərhələdə, bu növ məktəblərdə çalışmaq təklif edək. Alternativ təkliflər istiqamətində çalışırıq. Konkret olaraq bu proqramda pilot rejimdə ingilis dilinin məsafəli tədrisinin əsasının qoyulmasını planlaşdırırıq.

**– Qeyri-gürcü dilli məktəb müəllimlərinin peşəkar inkişaf proqramının məqsəd və miqyasları necədir?**

– Proqramın məqsədi milli azlıqların kompakt yaşadığı regionlarda qeyri-gürcü dilli məktəb müəllimlərinin peşəkar inkişafına və tədris-təhsil prosesinə dəstək olmaqdır. Bu nəticəyə nail olmaq dövlət dilinin gücləndirilməsi və məktəbin bazasında qeyri-formal tədris təcrübəsinin yaxşılaşdırılması yolu ilə planlaşdırılır. Proqramın miqyasına gəldikdə isə, bu, Samtsxe-Cavaxeti, Kvemo Kartli və Kaxetinin 185 məktəbini əhatə edir. Proqrama 118 nəfər məsləhətçi, 114 nəfər köməkçi və 50 nəfər ikidilli köməkçi müəllim qoşulub. Proqram xüsusən ikidilli köməkçi müəllimlər üçün vacibdir. Çünki onlara qarşı məktəbdə və ümumiyyətlə icmada daha çox etibar edilir. Onlar öz kəndlərinə qayıdırlar, proqramda işlə təmin olunurlar, dövlət və ana dillərini bilirlər, onlar üçün məlumat almaq və ötürmək zamanı dil maneəsi problemi aradan qalxır. Onlar köməkçi müəllim və fasilitator kimi yerli pedaqoqlara kömək edirlər. Yeni məzun olanlarda bu istiqamətlə yanaşı proqramda işlə təmin olunanların sayı artacaq. Bu yanaşma nəticələrin davamlı olmasına zəmanət yaradır.

Məqsədlərdə qeyri-formal təhsil təcrübəsinin yaxşılaşdırılmasını da qeyd etdik. Bu şagirdlərin dövlət dili kompetensiyasını inkişaf etdirmək və əmək bazarında onların rəqabətli olmasının artırılması üçün vacibdir. Cari tədris ilində proqramın məsləhətçi-müəllimləri 1000-ə qədər dərsdən kənar müxtəlif aktivliklər, həmçinin dərnək və klub işləri, proqramın məqsədinə nail olmaq üçün ön şərt olan layihələr həyata keçiriblər.

**Gürcü dilindən tərcümə:**
**Aynurə Əliyeva**

# MƏKTƏBLƏRDƏ MÜXTƏLİF SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN TƏDRİS İLİ MÜXTƏLİF VAXTLARDA BAŞA ÇATACAQ

Təhsil və elm nazirinin sərəncamına əsasən, Gürcüstanın ümumtəhsil müəssisələrində tədris ili 15 iyun tarixində başa çatacaq.

1-ci və 12-ci sinif şagirdləri isə tədrisi daha tez başa vuracaqlar. 1-ci sinif şagirdləri üçün tədris ili 2018-ci ilin 25 may tarixində, 12-ci sinif şagirdləri üçün isə 18 may tarixində başa çatacaq.

"Gürcüstanın ümumtəhsil müəssisələrində 1-ci sinif şagirdləri üçün tədris ili 27 mayda, məzun olacaq sinif şagirdləri üçün isə 20 mayda başa çatsın. Əgər qeyd olunan tarixlər istirahət və bayram günlərinə təsadüf edərsə, tədris ili 1-ci sinif şagirdləri üçün 27 maya qədər sonuncu iş günü (yəni 25 may), məzun olacaq sinif şagirdləri üçün isə 20 may tarixinə qədər sonuncu iş günü (yəni 18 may) başa çatsın", – təhsil və elm nazirinin sərəncamında yazılıb.

Xatırladaq ki, 2018-2019-cu tədris ili sentyabrın 17-si başlayacaq.

# MƏN TERRORÇU DEYİLƏM!!!

***Sizə heç belə sual ünvanlayıblarmı:***
***– Sən terrorçusanmı?***
***Xeyr, əlbəttə ki, mən terrorçu deyiləm!!!***

9 aydır ki, ABŞ-ın Miçiqan ştatında “FLEX” proqramı çərçivəsində təhsil alıram. Amerikaya gəldiyimdən bu günə qədər rahatlıqla deyə bilərəm ki, dəfələrlə təkrar etmək məcburiyyətində qaldığım ən narahat edici cümlələrdən biri “Mən terrorçu deyiləm!” olub.

Gəldiyim gündən bir çox tədbirlər və təqdimatlar həyata keçirmişəm. Amerikalılara ölkəm, adət-ənənələr, tarix, gürcü və azərbaycanlıların necə mehriban həyat yaşadıqları kimi mövzulardan danışmışam. Əlbəttə ki, ikiqat məsuliyyət daşıyırdım – hər dəfə iki mədəniyyətdən danışırdım – gürcü və Azərbaycan mədəniyyəti. Borçalı ərazisində kompakt yaşayan azərbaycanlıların öz adət-ənənələrini qoruyub yaşatmaları və eyni zamanda gürcü mədəniyyətinə də necə tolerant yanaşdıqları həmişə amerikalıları təəccübləndirib. Xoşbəxtlikdən hər iki mədəniyyət haqqında danışdıqlarım onlarda böyük maraq oyadırdı və dinləyici kütləsi tərəfindən suallar səslənirdi. Lakin müsəlman olduğumu öyrənən insanların mənə “terroristsənmi?” sualını ünvanlaması məni çox narahat edirdi. İnsanların İslamın necə müqəddəs və sülh dini olduğunu hər kəsə başa salmağa can atırdım. Amerikada yaşadığım ailə dindar xristian ailədir və hər həftəsonu kilsəyə gedirlər. Başqa dinlərlə bağlı biliyimi artırmaq üçün onlarla bərabər həftəsonları mən də kilsəyə gedirəm.

Getdiyim Birinci Presviterian Kilsəsinin müavini ilə arada söhbət edib dinimizin oxşarlıqları haqqında danışırdıq və ətrafımdakı insanların İslamı terror dini kimi qəbul etdiyi və bunun məni çox üzdüyünü ona da demişdim. Bir həftəsonu kilsədə İslam haqqında görüş keçirmək qərarına gəldik. Bu dəfə öhdəliyimə ən vacib və ən məsuliyyətli iş düşdü. Dinimdən – İslamdan danışmalı idim. Günlərlə gecələri yatmadan təqdimat üçün hazırlaşdım. Araşdırmalar etdim, bir daha dinimizin gözəlliklərinin fərqinə vardım



**Aytən Rüstəmova**
**Amerika, Miçiqan**

və bu gün rahatlıqla və qürurla deyə bilərəm ki, mən bunu bacardım. Dinləyicilərimə İslamın terror dini və müsəlmanların terrorçu olmadığını təsdiqlədim. Dinimiz haqqında daha geniş məlumata sahib olan dostlarımın da köməyi ilə İslamın tarixi, onu insanların ürəyinə və beyninə həkk edən mübarək şəxslər, İslamın qadına münasibəti, İslamın tolerantlığı və s. kimi mövzular haqqında təqdimat hazırladım. Onlara sırf müsəlman olduğuma görə mənə – Aytən, sən terrorçusanmı? – sualının insanı necə yaraladığını dedim. Çox heyif ki, İslam dini dünyada qadının tapdalandığı bir din kimi tanınır. Çıxışımda buna da böyük bir yer ayırmışdım. Dinimizin qadınlara vədləri və yanaşması haqqında danışanda hər kəs çox təəccübləndi. Bəlkə də təsəvvür etmək çətindir, kilsədə azan səsləndirdik. Azan oxunarkən bir çoxunun üz ifadələri dəyişməyə başlamışdı. Həqiqətən də azan çox müqəddəsdir. Həmin an yaşadığım xoşbəxtliyi təsəvvür edə bilməzsiniz. Hiss edirdim ki, məni dinləyənlərin fikirləri dəyişməyə doğru gedir. Həmin an sanki mənə fərqli bir güc gəlmişdi və çıxışım başa çatanda bir çoxunun gözü yaşlı mənə yaxınlaşıb üzr istəməsi, yaşlı nənə-babaların mənə sarılıb minnətdarlıqlarını bildirməsi və iştirakçıların çoxusunun fikirlərini dəyişdirdiklərini vurğulaması məni hədsiz dərəcədə xoşbəxt etdi. Təqdimatımın sonunda kilsənin naziri mənim yanıma yaxınlaşıb hər kəsin qarşısında məndən və bütün müsəlmanlardan, bizi terrorçu adlandıran şəxslər adından üzr istədi. Bundan əlavə, təqdimatda iştirak edən hər kəs onların fikirlərində dəyişiklik etdiyimə görə təşəkkür əlaməti olaraq Ramazan ayında mənimlə birgə bir gün oruc tutub, kilsədə iftar təşkil etmək istədiklərini bildirdilər. Bir necə universitet və məktəblərdən təklif də aldım və artıq İslam haqqında başqa görüşlər də keçirirəm.

***İlk əvvəl müsəlmanları terrorçu adlandıran insanları qınayırdım, amma onların niyə belə düşündüyünü anlamağa çalışmırdım. Araşdırmalar zamanı bir neçə sorğu da keçirdim. Bunların nəticəsində sosial media və xəbərlərin insanların üzərlərində çox böyük təsiri olduğunu anladım. Buradakı insanların belə düşünməsinin əsas səbəbi yanlış xəbər mənbələridir. Onların İslam və müsəlman haqqında görüb bildikləri yalnız “Allahu-əkbər” deyib insanları öldürən saqqalı kişilərdir. Buna görə də onların beynində müsəlmanlara qarşı mənfi fikirlər yaranır. Onların fikirlərini dəyişmək göründüyü kimi çətin deyil, sadəcə doğru mənbələri və doğru məlumatları çatdırmaq kifayətdir. Və son olaraq bunu da əlavə etmək istərdim ki, İslam və Xristianlıq dinlərinin bir-birinə bənzər çox məqamları var. Fərqlilikləri düzgün qəbul edib, hər millətə və dinə tolerant yanaşsaq dünyamızın hər tərəfində sülh və mehribanlıq olar. Gəlin dünyanı dəyişməyə özümüzdən, beynimizdən və fikirlərimizdən başlayaq.***

## MÜƏLLİMLƏRƏ TƏLİMLƏR YALNIZ ŞƏNBƏ-BAZAR GÜNLƏRİ VƏ TƏTİL VAXTLARI KEÇİRİLƏCƏK

Müəllimlərə təlimlər tədris dövrü müddətində keçirilməyəcək. Təlimlər pedaqoqların bir hissəsinə şənbə-bazar günləri, digər hissəsinə isə yay tətili vaxtları keçiriləcək. Bundan əlavə, təlimlərdə müəllimlər üçün praktiki bacarıqların işlənilməsinə önəm veriləcək.

“Prosedur olaraq hesab edək ki, bu proses artıq başlayıb. Təlimlərin şənbə-bazar və tətil vaxtları keçirilməsinə dair nazirlikdən tapşırığımız var.

Tətil vaxtları isə, yəqin ki, Milli Tədris Planının icrasına dair təlimlərdən istifadə etməli olacağıq. Çünki çox sayda müəllimlərin hazırlanmasına ehtiyac var. Bir halda ki, tətildə hər gün təlimlər keçirə bilərik, təlimlərə gündə bir saat deyil, daha çox vaxt ayıracağıq. Şənbə-bazar günlərində təlimlərin keçirilməsinə isə artıq başlanılıb”, - bildirib müəllimlərin milli peşəkar inkişaf mərkəzinin direktor müavini Manana Ratiani.

Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli qeyd olunan dəyişikliklərin səbəbini izah edərək deyir ki, bu gün mövcud olan problemləri nəzərə almaqla müəllimlərə praktiki bacarıqlar əldə etmək olduqca vacibdir və bu növ təlimlərin keçirilməsi yaydan başlayacaq.

“Bildiyiniz kimi müəllimlər öz kvalifikasiyalarını yüksəltmək üçün təlim formatında kurslar keçirlər. Təlimlərlə bağlı planlaşdırdığımız bəzi yeniliklər var. Dərs vaxtları müəllim və direktor məktəbdə olmalıdır. Təlimlər şənbə-bazar günləri və ya tətil zamanı da keçirilə bilər. Təlimlərin əsas hissəsi yayda – məktəblərdə böyük tətil olan zaman keçiriləcək. Çünki tədris ili ərzində müəllim özünün bütün enerjisini dərslərin hazırlanmasına, dərsi necə keçəcəyinə, nə öyrədəcəyinə sərf etməlidir.

Təlimlər əsasən nəzəri baxımdan keçirilirdi, bu əlbəttə vacibdir, ancaq məktəblərdə mövcud olan real problemlərimizdən dolayı praktiki bacarıqlar önəmlidir və yaydan bunun əsasının qoyulmasına başlayacağıq. Məsələn, pedaqoji bacarıqların inkişafı, yəni müəllim bu təlimlərdən sonra sinif otağına nə aparacaq. Çünki müəllim təlimdə əldə etdiyi məlumatları şagirdə qədər aparıb çıxara bilmədisə, o zaman bunu etməyin heç bir mənası yoxdur”, - deyə Mixeil Çxenkeli bildirib.

## YENİ TƏDRİS İLİNDƏN 1+4 PROQRAMINDA GÜRCÜ DİLİNİN TƏDRİS MÜDDƏTİ UZADILA BİLƏR

Yeni tədris ilindən 1+4 proqramında gürcü dilinin tədris müddəti uzadıla bilər. Bu haqda təhsil və elm nazirinin müavini Lia Qiqauri bildirib.



L. Qiqaurinin sözlərinə görə, 1+4 proqramının inkişafı haqqında Xalq Müdafiəçisinin məsləhətində də söhbət açılıb və nazirlik məsələ üzərində çalışmağa başlayıb.

“Biz Xalq Müdafiəçisinin məsləhətini dəstəkləyirik. Qiymətləndirmələr və eləcə də müxtəlif müəssisələrdən, benefisiarlardan gələn məsləhətlər göstərdi ki, bir illik gürcü dilinin tədris kursu şəxsin (tələbənin) gürcü dilində peşəkar terminlərə və peşəkar ədəbiyyata sahiblənməsi üçün yetərli deyil. Müvafiq olaraq proqrama yenidən baxış keçirilməsinə qərar verildi və indiki mərhələdə gürcü dili kursunun nə qədər müddətə uzadılması məsələsi üzərində çalışırıq”, - qeyd edib Lia Qiqauri.

Onun sözlərinə görə, tədris ili bir illik olmayacaq. Amma Xalq Müdafiəçisi və müxtəlif maraqlanan şəxslərlə, həmçinin Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Nazirliyi ilə əməkdaşlıq nəticəsində bu kursa yenidən baxışın keçirilməsi və ilk mərhələdə gürcü dilinin tədris kursunun müddətinin nə qədər uzadılacağı istiqamətində çalışırlar.

“Bunların hamısına maliyyə lazımdır. Məhz bu istiqamətdə çalışırıq və bu bizim orta müddətli planımızdır”, - deyə Lia Qiqauri bildirib.

Xatırladaq ki, gürcü dili hazırlıq tədris proqramı 1+4 2010-cu ildən qüvvədədir. Qeyd olunan proqram etnik azlıqlar üçün ali təhsil almağa dəstək məqsədi ilə həyata keçirilir.

# İTİRİLMİŞ HÖRMƏT

***Uzatmaq lazım deyil, birbaşa başlayaq. Məsələ ondadır ki, bizim icmada müəllimlik hörmətdən düşüb. Bunu malalamağın nə müəllimə, nə xalqa bir xeyri yoxdur. Əvvəllər müəllimə necə hörmət olunduğunu əvvəlki nəsildən eşitmişik. Elə bizim uşaqlığımızda da bu cür idi. Bizim üçün müəllim nə isə fövqəlinsan siması daşıyırdı.***

Uşağın müəllimə olan hörmət hissini ilk öncə uşaqda valideyn oyatmalıdır, aşılamalıdır. O duyğunun gələrək böyüdülməsi isə müəllimin boynuna düşür.

"Müəllimlik niyə hörmətdən düşdü?" sualına yəqin ki, "Niyə düşür ki?", "Kim deyir ki?" sualları ilə cavab verən olar.

Müəllimliyin hörmətdən düşmə məsələsinə sübut lazım deyil. Sadalayacağım taftaloji, çeynənmiş söz birləşmələrini, cümlələri misal gətirərək faciəmizin miqyasını təsvir etmək olar: "Başı dolu, cibi boş", "Gedib müəllim olub kiminsə salaxantasının nervsinimi çəkəcəm, ondansa fəhlə işləyərəm", "300-400 lariyə işləmək üçünmü oxuyurdun".

Bu cür sözlər bəşəri funksiyası olan bir ixtisas sahibini adiləşdirib, endirib 300-400 lariyə işləyən sıravi, adi bir insana çevirdi. Yaşadığımız dövrdə, aydın məsələdir ki, insanlar bir-birinə aldığı maaşa görə, əyin-başının şarmlılığına görə hörmət edir. Bu gün bizim icmada "qanuni oğruya", biznesmenə müəllimdən daha çox hörmət olunur. Problem ictimai şüurun yoxluğundadır. Biz məktəbin, müəllimliyin, müəllimin ictimai çəkisini, bəşəri funksiyasını dərk edə bilmirik. Dərk etmək istəmirik. Nəticədə müəllimlik lağva obyektinə çevrildi.

İndi sual verirəm əziz oxucu. Müəllimliyin ən axırıncı isxtisas kimi görüldüyü bir toplumda müəllim olmaq isətəyən neçə yeniyetmə-gənc var? Kim müəllim olar?

Hansısa müəllimi tənqid edə bilərsiniz, müəllimliyi əsla.

Kimsə müəllim olmaq istəməyə bilər, bu onun öz işidir, hamının müəllim olmağına da gərək yoxdur. Birinin müəllimliyi sevməyib, gedib alverçi olmaq hüququ var, ancaq onun müəllimliyi lağva obyektinə, nişangahına çevirmə haqqı yoxdur. Həmin bu tip insanlar özlərinin və özlərindən olanın həmişə alverçi, "vor zakon", maldar olmasını istəyirsə öz işidir və öz seçimini başqalarına sırımağa – məktəbi və müəllimliyi alçaldaraq hamını özünə çevirməyə haqqı yoxdur.

Bir şeyin qədrini, həqiqi dəyərini bilmək üçün ya onun yoxluğunu yaşamalısan, ya da təsəvvür etməlisən. Bir anlıq məktəbin və müəllimliyin insanın, xalqın normal vəziyyətdə mövcudluğunu davam etməsində rolunu dərk etmək üçün, onun bir nəsil yetişmə müddəti qədər olmadığını təsəvvür edin. Təsəvvür edin ki, 10 il müəllimsizik .Yaranacaq vəhşiliyi göz önünüzə gətirin, insanlarımızın sürü təfəkkürünü göz önünüzə gətirin.



Bizim icmada açıq-aşkar məktəblə – çayxana, qumarxana arasında və məktəblə – erkən evilik arasında rəqabət gedir. Əgər çayxana və qumarxanaya gedənlərin sayı məktəbə gedənlərin sayından çox olarsa, əgər erkən evlənənlərin – məktəbdən gedənlərin sayı məktəbdə qalanların sayından çox olarsa, məktəb məğlub olacaq. Əgər məktəb məğlub olsa, xalq da məğlub olacaq. Bu məğlubiyyətlə isə hər şeyimizi uduzmuş olacağıq.

Məktəbin qalib gəlməsi üçün isə müəllimliyin itirilmiş hörmətini qaytarmaq lazımdır. Çünki müəllimlik – müəllimi, şagirdi məkətəbə, təhsilə bağlayan vasitədir. Məktəbin qələbəsi müəllimin məktəbdə yaratdığı mühitdən, atmosferdən bütünlüklə olmasa da, bir xeyli asılıdır. Bunun üçün isə, sözün əsl mənasında məsuliyyətli, güclü, peşəsinə hörmət edən-sevən müəllimlər lazımdır. Bu cür müəllimlərin olması üçün müəllimlik lağva yox, qürur mənbəyi olmalıdır. Müəllimliyin qürur mənbəyi olması isə xalqın fəhmindən asılıdır. Müəllimin, müəllimliyin şagird və valideyn (hətta bəzən müəllim) tərəfindən lağa qoyulduğu bir toplumda heç kəs müəllim olmaq istəməz.

Bizim düşüncəmizin kəm-kasad yeri ondan ibarətdir ki, müəllimliyə lağ edə-edə uşağımıza yaxşı və məsuliyyətli müəllimin dərs deməsini istəyirik və onu qanmaq istəmirik ki, müəllimliyin "bivec" peşə adlandığı bir toplumda heç bir məsuliyyətli, işsevən adam müəllim olmaq istəməz.

***Müəllimliyin itirilmiş hörmətini qaytarın.***

**Həmid SADIX**

## QARDABANİ BƏLƏDİYYƏSİNDƏ 9 MAY QEYD EDİLİB

Qardabani bələdiyyəsində 9 May – faşizm üzərində Qələbə gününün 73 illiyi qeyd olunub. Qardabani merinin öhdəliyini yerinə yetirən Revaz Eqadze və sakrebulo sədri Tariel Canxoteli Qardabani şəhərində, Axali Samqori və Norio kəndlərində yerləşən İkinci Dünya müharibəsində həlak olanların memorialına əklil qoyub.

Tədbirdə İkinci Dünya müharibəsində iştirak etmiş veteranlar və veteran səviyyəsinə bərabər olanlar da iştirak ediblər.

Əklil qoyma mərasimindən sonra memorialların yanında kiçik təntənəli tədbirlər keçirilib. Tədbirdə Qardabani bələdiyyəsinin Mədəniyyət Evində fəaliyyət göstərən "Betania" ansamblı, Axali Samqorinin gürcü xalq musiqilərinin tədris folklor qrupu və Norionun teatr qrupunun yetirmələri iştirak ediblər.

Qardabani meriyası İkinci Dünya müharibəsində iştirak edən veteranlara birdəfəlik yardım olaraq 500 lari, veteran səviyyəsinə bərabər olan şəxslərə isə 300 lari pul mükafatı verib.



Qeyd edək ki, Qardabani bələdiyyəsində 11 veteran və 27 veteran səviyyəsinə bərabər olan şəxs yaşayır.

## KVEMO KARTLİ PROKURORLUĞUNUN YENİ OFİSİ AÇILIB



Kvemo Kartli prokurorluğu yeni ünvana keçir. Prokurorluğun köhnə binasının taleyi haqda heç bir müəssisə hələ ki, rəsmi məlumat vermir. Qeyri-rəsmi məlumata əsasən, prokurorluğun köhnə binasında böyük ehtimalla nəzarət və Rustavi Servis Mərkəzinin xidmətləri yerləşdiriləcək.

Kvemo Kartli prokurorluğu yaxın zamanda Rustavi şəhərində, Pirosmani küçəsində yerləşən yeni ofisə keçəcək. Binada əsas işlər artıq başa çatıb. Avro standartlara müvafiq olan müəssisənin açılışı yaxın günlərdə baş tutacaq.

## SVANETİDƏ QAFQAZ DAĞ MƏRKƏZİ TİKİLƏCƏK

Svaneti bölgəsində Qafqaz dağ mərkəzi inşa ediləcək. Mərkəzin tikintisi ilə bağlı ideya dünyaca məşhur italyan alpinist Raynhold Messnerə məxsusdur.

Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili R. Messnerlə görüşdə mərkəzin inşasını ölkədə turizmin gələcək inkişafı üçün çox yaxşı imkan adlandırıb. "Mərkəz turizmin inkişafına böyük təkan verməklə yanaşı, çoxlu turist cəlb edəcək", - deyə baş nazir bildirib.

R. Messner öz növbəsində qeyd edib ki, layihə Gürcüstanın dünya alpinizmində mərkəzi yer tutması üçün böyük imkandır.

Qeyd edək ki, R. Messner İtaliya Alplarında dağ muzeyləri şəbəkəsi yaradıb və Qafqaz dağ mərkəzi bu şəbəkənin bir hissəsi olacaq. Mərkəzin dizayneri italyan memar Verner Çoll olacaq.

## KVEMO KARTLİ REGİONUNDA YAŞAYAN QADINLAR ÜÇÜN MÜSABİQƏ BAŞLAYIB

Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının təşəbbüsü ilə Kvemo Kartlidə yaşayan qadınlara "Sənayeçiliyin praktiki kursu – biznesə necə başlayaq və onu necə inkişaf etdirək" tədris/təlim kursunda iştirak etmək üçün müsabiqə elan olunub.

Tədris kursunun məqsədi sənayeçilər haqqında nəzəri biliyin artırılması və biznesin istehsalı bacarıqlarının gücləndirilməsidir. Müsabiqədə Kvemo Kartlidə yaşayan, biznesə başlamaq istəyən qadınlar iştirak edə bilərlər.

Tədris/təlim kursu interaktiv mühazirələrdən, praktiki tapşırıqlardan, təqdimat hazırlanmasından və müxtəlif mövzularda təqdimatlardan, həmçinin yeni biznes ideyanın yaradılması, bazarın analizi və sahələrə əsasən bölgü, biznes modelləşdirmə, kommersiallaşdırma strategiyasının işlənilməsi kimi mövzulardan ibarətdir.

Kursun sonunda iştirakçılara müxtəlif kateqoriyalı sertifikatlar təqdim olunacaq. Sertifikatın tipi iştirak etməyə, dəyərləndirmə və yekun təqdimata bağlıdır.

Müsabiqə Maliyyə Nazirliyi Akademiyası ilə əməkdaşlıqla və Kvemo Kartli qubernator Administrasiyasının dəstəyi ilə elan edilib.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 MAY 2018-Cİ İL
№007 (66)

## TANINMIŞ GÜRCÜ ŞAİRİ, TƏRCÜMƏÇİ ZEZVA MEDULAŞVİLİ VƏFAT EDİB

Tanınmış gürcü şairi, tərcüməçi Zezva Medulaşvili aprelin 30-u 79 yaşında dünyasını dəyişib.

Zezva Nikoloz oğlu Medulaşvili 1939-cu ilin 20 dekabr tarixində Qurcaani rayonunun Araşenda kəndində anadan olub.

1957-ci ildə Araşenda orta məktəbini gümüş medalla bitirib və İvane Cavaxişvili adına Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə qəbul olunub. Fars dili və ədəbiyyatı üzrə təhsil alan Zezva müstəqil şəkildə Azərbaycan dilini öyrənib.

1961-ci ildə onun ilk tərcüməsi "Meqobrobis tsisartğela" (Dostluq göyqurşağı) almanaxında nəşr olunub.

Onun tərcümələri Azərbaycan, fars, tacik, özbək, türkmən, türk, çeçen, rus, alman, erməni dillərində müxtəlif jurnal-qazetlərdə çap olunub.

1974-cü ildən Yazıçılar Birliyində mövcud olan bədii tərcümə və ədəbi əlaqələr üzrə baş redaksiya kollegiyasında rəhbər alim-əməkdaş olaraq çalışıb.

Zezva Medulaşvili Eğişe Çarentsi (1986), İvane Maçabela (1987), Şərəf ordeni (2001), Azərbaycan xalq eposu "Koroğlu"nun tərcüməsinə görə "Saba" mükafatı (2004), tərcümələrə görə "Saqurамо" mükafatı (2011) ilə təltif edilib.



Onun Azərbaycan ədəbiyyatı ilə sıx əlaqələri olub. Klassik Azərbaycan ədəbiyyatından İ. Nəsimi, M. P. Vaqif, A. Ələsgər və "Koroğlu" qəhrəmanlıq dastanını, Azərbaycan bayatılarını, XX əsr Azərbaycan ədəbiyyatından S.Vurğun, S. Rüstəm, M. Araz, İ. İsmayılzadə, N. Həsənzadə, İ. Məlikzadə, A. Abdulla, V. Nəsib, həmçinin gənc nəslin bir çox nümayəndəsini gürcü dilinə tərcümə edib.

## GÜRCÜSTANDA YENİ MÜSTƏQİL TEATR FƏALİYYƏTƏ BAŞLAYIR




Gürcüstanda yeni müstəqil teatrın əsası qoyulub. Gənc aktyor və rejissor Anar Rafiqoğlu və Rabil İsmayılov tərəfindən təsis olunmuş Era Teatrı yaxın zamanlarda öz tamaşalarını nümayiş etdirməyi planlaşdırır. Bu haqda məlumatı sözügedən teatrın qurucularından biri, eyni zamanda Tbilisi Dövlət Azərbaycan Dram teatrının aktyoru Anar Rafiqoğlu verib. O, bildirib ki, Era Teatrı aktyorluğa və teatra həvəsi olan gəncləri könüllü olaraq bir araya toplamaq və əsasən sosial problemləri gündəmə gətirəcək tamaşalar hazırlamaq məqsədi ilə yaradılıb.

Rabil İsmayılov isə teatrın heyətində 10-a yaxın gəncin olduğunu və gələcəkdə gənclərin sayının artaraq böyük bir teatr olmağı bacaracaqlarına ümid bəslədiklərini bildirib. Era Teatrı istedadına güvənən hər bir gəncə ixtisasından asılı olmayaraq şans verməyə hazırdır.

Teatrın qurucuları bildiriblər ki, Era Teatrında tamaşalar Azərbaycan dili ilə yanaşı gürcü, rus və türk dillərində də nümayiş olunacaq.

"Teatrın adına gəldikdə, Era həm qısa, həm də bütün dillərdə rahat səslənən bir addır. Eranın mənası həm də yeni bir tarixin başlanğıcı deməkdir. Biz də öz yeni teatr tariximizi yaratmaq məqsədi ilə yola çıxdıq", - deyə Anar Rafiqoğlu "Yeni YOL" qəzetinə bildirib.

Qeyd edək ki, Era Teatrı yaxın zamanda Anar Rafiqoğlunun ssenari müəllifi və rejissoru olduğu "Məni bağışla" adlı tamaşanı Bolnisidə gürcü dilində nümayiş etdirəcək.

## ƏFSANƏVİ BƏSTƏKAR ENNİO MORRİKONE GÜRCÜSTANA GƏLİR




Dünya şöhrətli İtalyan bəstəkarı və dirijoru Ennio Morrikone Gürcüstana gəlir. Ennio Morrikone 19 may tarixində Roma Simfonik Orkestri ilə birgə "Chek In Georgia" layihəsi çərçivəsində Şekvetilidə yerləşən "Black Sea Arena"da konsert verəcək. Tədbir əfsanəvi maestronun fəaliyyətinin 60 illik yubileyi çərçivəsində baş tutan dünya turnesinin bir hissəsidir.

Maestro şəxsən özü orkestrə dirijorluq edəcək. Tədbirdə Tbilisi Operasının 70 nəfərlik komandası da iştirak edəcək.

Məşhur bəstəkar Gürcüstana ilk dəfə gəlir və "Black Sea Arena"nın 2018-ci il mövsümü onun konserti ilə açılacaq.

Biletlərin satışı 20 aprel tarixindən başlayıb və tkt.ge saytı vasitəsilə bilet əldə etmək mümkündür. Biletin qiyməti 60 laridən başlayır.

Qeyd edək ki, 2007-ci ildə Morrikone kinomatoqrafiya sahəsindəki xidmətinə görə "Oskar" mükafatı alıb.

Gürcüstan Dəmir Yolu 19 may tarixində Ennio Morrikonenin konserti ilə bağlı əlavə reys təyin edib. "Black Sea Arena"da baş tutacaq konsertdə iştirak etmək istəyənlərə iki mərtəbəli "Stadler" qatarı xidmət göstərəcək.

Qatar Tbilisidən saat 14:10-da çıxacaq və Şekvetiliyə, "Black Sea Arena"ya 18:30-da daxil olacaq. Konsert başa çatdıqdan sonra isə qatar həmin məkandan Tbilisi istiqamətində saat 00:05-də çıxacaq və saat 04:25-də paytaxtda olacaq.

Biletlərin əldə edilməsi dəmiryolunun mərkəzi dayanacağının kassalarında, dəmiryolunun rəsmi vebshifəsində və applikasiya vasitəsilə də mümkün olacaq.

## ANAR RAFİQOĞLU NÖVBƏTİ "ZARAFAT KOLLEKSİYASI"NA HAZIRLAŞIR




Mayın 24-ü, saat 15:30-da Tbilisidə, Atoneli teatrında gənc aktyor Anar Rafiqoğlunun "Zarafat Kolleksiyası 5" adlı stand up komediya tamaşası baş tutacaq. Bu, 2012-ci ildən Gürcüstanda stand up janrında tamaşalar hazırlayan Anar Rafiqoğlunun sayca 9-cu stand up komediya tamaşasıdır.

"Tamaşaya maraq olduqca böyükdür. Artıq həm tamaşaçı dəstəyimiz, həm də sponsor dəstəyimiz var. Sevindirici haldır ki, müəyyən şirkətlər, iş adamları bizə, teatra dəstək olmağa çalışır. Və artıq insanlarımız tamaşaları izləmək üçün bilet alır. Bu anlayışı və ənənəni davam etdirməliyik. Aktyorlar və teatr ancaq bu şəkildə ayaqda qala bilər", - deyə Anar Rafiqoğlu "Yeni YOL" qəzetinə bildirib.

Tamaşa haqqında da məlumat verən aktyor, ölkəmizdə və dünyada baş verən sosial problemlərə toxunduğunu, yeni mövzular seçdiyini və həm gülməli, həm də düşündürücü zarafatlar etməyə çalışacağını vurğulayıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

**Redaktor:** Azər Musaoğlu
**Yayım Direktoru:** Hacı Bəkiroğlu
**Qrafik dizayn:** Elsevər Əhmədov

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 555 96 18 68*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.